# ABŞ və Aİ Qafqazda ayırıcı xətlər yaratmağa can atırlar

Prezident İlham Əliyevin qənaətinə görə, bu gün keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq, təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq. Entoni Blinken isə ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib. ABŞ rəsmisi üçtərəfli görüşün Azərbaycana qarşı olmadığını vurğulayıb.

9

# ABŞ və Aİ Qafqazda ayırıcı xətlər yaratmağa can atırlar

## Üçtərəfli görüşdə Ermənistana dəstək verilməsi regionda sabitliyi poza bilər

**Aprelin 3-də Prezident İlham Əliyevlə ABŞ Dövlət katibi Entoni Blinken arasında telefon danışığında Azərbaycanın üçtərəfli görüşdən narahatlığı bir daha ifadə olunub. Dövlət başçısı qeyd edib ki, onda olan məlumata əsasən, üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanı silahlandırması kimi məsələlər də müzakirə olunub.**



Ölkə rəhbəri anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən Fransa tərəfindən Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulayıb.

Prezident İlham Əliyevin qənaətinə görə, bu gün keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.

Entoni Blinken isə ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib. ABŞ rəsmisi üçtərəfli görüşün Azərbaycana qarşı olmadığını vurğulayıb. Sözügedən görüşün əsas mahiyyətinin Ermənistanın iqtisadi inkişafı məsələləri ilə bağlı olduğunu diqqətə çatdırıb.

Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ABŞ Dövlət katibinin Prezident İlham Əliyevə zəng etməsi ilk növbədə Azərbaycanın beynəlxalq birlikdə qazandığı nüfuzundan irəli gəlir. Bu, dövlət başçısının mövqeyinin, sözünün nə dərəcədə diqqətlə dinlənildiyinin nümunəsidir.

E.Blinkenin ABŞ Administrasiyasında statusuna görə yüksək şəxs olduğunu deyən deputat əlavə edib ki, telefon zəngi Brüsseldə keçiriləcək üçtərəfli görüşlə bağlı Azərbaycanın narahatlığı xəbərinin ABŞ-ni də narahat etdiyindən xəbər verir: "Görünən odur ki, rəsmi Vaşinqton Azərbaycanın bu görüşdən narazı qalmaması üçün əlindən gələni edir. Danışıqlar zamanı bildirildi ki, görüş ancaq Ermənistanın daxili məsələləri ilə bağlıdır. Bununla belə Prezident İlham Əliyev Azərbaycanın haqlı narahatlığını ABŞ rəsmisinin diqqətinə çatdırdı".

A.Mirzəzadə vurğulayıb ki, Ermənistanın silahlandırılması, onun iddialarına siyasi cəhətdən dəstək verilməsi regionda yeni gərginlik ocağının yaradılmasına gətirib çıxarır.

Deputat sonda bugünkü görüşdə Azərbaycanın narahatlığına səbəb olacaq qərarların qəbul edilməyəcəyinə ümid etdiyini də bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 5 aprel, № 70.- S.1, 9.